**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**054/460

**Bakı şəhəri** „08" sentyabr **2025-ci il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2025-ci il 2–5 sentyabr tarixli rəsmi məlumatlarına əsasən, Monqolustanın Dornod (Dornod) vilayətində **dabaq** xəstəliyi, Sloveniya Respublikasının Cənub-Şərqi Sloveniya (Jugovzhodna Slovenija), Mərkəzi Sloveniya (Osrednjeslovenska), Aşağı Posavska (Spodnjeposavska), Zasavska (Zasavska) regionlarında, Bolqarıstan Respublikasının Sofiya (Sofia), Qabrovo (Gabrovo) vilayətlərində **blutanq** xəstəliyi, Yunanıstan Respublikasının Epir və Qərbi Makedoniya (Epirus and Western Macedonia) inzibati ərazi vahidində, Liviya Dövlətinin Tripoli (Tripoli) dairəsində **xırdabuynuzlu heyvanların çiçək** (XBÇ) xəstəliyi, Portuqaliya Respublikasının Santarem (Santarem) dairəsində, İspaniya Krallığının Andalusiya (Andalucía) muxtar icmasında, Norveç Krallığının Nurlann (Nordland) kantonunda isə **yüksək patogen quş qripi** (YPQQ) xəstəliyi qeydə alınmışdır.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəliklərdən qorunması üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən zəruri tədbirlərin görülməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

1. ÜHST-nin Monqolustanın Dornod vilayətində dabaq xəstəliyinin, Sloveniya Respublikasının Cənub-Şərqi Sloveniya, Mərkəzi Sloveniya, Aşağı Posavska, Zasavska regionlarında, Bolqarıstan Respublikasının Sofiya, Qabrovo vilayətlərində blutanq xəstəliyinin, Yunanıstan Respublikasının Epir və Qərbi Makedoniya inzibati ərazi vahidində, Liviya Dövlətinin Tripoli dairəsində XBÇ xəstəliyinin, Portuqaliya Respublikasının Santarem dairəsində, İspaniya Krallığının Andalusiya muxtar icmasında və Norveç Krallığının Nurlann kantonunda YPQQ xəstəliyinin qeydə alınması barədə məlumatları nəzərə alınsın.

2. Monqolustanın Dornod vilayətində, zonalaşma prinsipi nəzərə alınmaqla, dabaq xəstəliyi baş vermiş təsərrüfatdan 10 km radiusda olan məsafədən cütdırnaqlı heyvanların (iri və xırdabuynuzlu heyvanlar, donuz, dəvə və s.), habelə onlara aid xammal və məhsulların idxalına və tranzit daşınmasına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 8.8-ci Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

3. Sloveniya Respublikasının Cənub-Şərqi Sloveniya, Mərkəzi Sloveniya, Aşağı Posavska, Zasavska regionlarında və Bolqarıstan Respublikasının Sofiya, Qabrovo vilayətlərində zonalaşma prinsipi nəzərə alınmaqla, blutanq xəstəliyi baş vermiş təsərrüfatdan 150 km radiusda olan məsafədən bütün növ diri iri və xırdabuynuzlu heyvanların, dəvələrin, həmçinin onlara aid genetik materialların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 8.3-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.
08.09.2025

**4.** Yunanıstan Respublikasının Epir və Qərbi Makedoniya inzibati ərazi vahidində və Liviya Dövlətinin Tripoli dairəsində, zonalaşma prinsipi nəzərə alınmaqla, XBÇ xəstəliyi baş vermiş təsərrüfatın 10 km radiusda olan məsafədən diri xırdabuynuzlu heyvanların, onlara aid məhsullar və xammalın, o cümlədən genetik materialların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 14.9-cu Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**5.** Portuqaliya Respublikasının Santarem dairəsində, İspaniya Krallığının Andalusiya muxtar icmasında və Norveç Krallığının Nurlann kantonunda, zonalaşma prinsipi nəzərə alınmaqla, YPQQ xəstəliyi baş vermiş təsərrüfatdan 10 km radiusda olan məsafədə yerləşən müəssisələrdən diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (quş qripi viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəllәsi"nin 10.4-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**6.** Epizootik risk amillərinin mövcudluğu nəzərə alınaraq, bu qərarın 2-ci, 3-cü və 4-cü bəndlərində adıçəkilən inzibati ərazi vahidlərinin, 5-ci bəndində isə qeyd olunan ölkələrin sağlam ərazilərindən ölkəmizə idxal edilən həmin mallar yüksək risk qrupuna aid edilsin və daxil olan yükün hər partiyası laboratoriya müayinəsinə cəlb olunsun.

**7.** Xəstəliyin aşkarlandığı tarixə kimi, bu qərarın 2-ci, 3-cü 4-cü və 5-ci bəndlərində qeyd olunan inzibati ərazi vahidlərindən ixracatçı ölkənin səlahiyyətli qurumunun nəzarəti altında ölkəmizə daşınmaq üçün yüklənmiş adıçəkilən malların idxalı laboratoriya müayinəsinə cəlb olunmaqla həyata keçirilsin.

**8.** Bu qərarın 2-ci, 3-cü 4-cü və 5-ci bəndlərinin icrasının təmin edilməsi üçün, eyni zamanda sözügedən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərindən ölkə ərazisinə və yaxud həmin inzibati ərazi vahidlərindən tranzitlə keçib respublika ərazisinə daxil olan, habelə respublika ərazisindən tranzitlə digər ölkələrə gedən nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

**9.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**10.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

**11.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** Qalib Əbdüləliyev

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.

08.09.2025